*"Təzadlar" kitabında şe`rlər sayca o qədər çox deyil, ancaq mövzuları çeşidli, rəngarəngdir. Burda şe`rə həssas oxucuları düşündürəcək motivlər az deyil. Liriklikdə şair "Məni" bütün səmimiyyətilə bədii təcəssüm tapır. Hamlet İsaxanlı poeziyası bu cəhətdən ibrətamiz nümunələrə malikdir. Onun sevgi şe`ri müxtəlif çalarlı bir silsilədir.*

*Hamlet İsaxanlı poeziyası, sadəcə, bədii zövqü oxşamaqla məhdudlaşmır. Onda estetiklik canlı fikirlə vəhdətdə poetik əksini tapır.*

*Hamlet İsaxanlının şe`rlərini oxucular özlərinin mə`navi-estetik maraqlarına, zövqlərinə uyğun kəşf edəcəklər. Mö`minlər dini anlamlarla zəngin "Hacı oldun, çox mübarək!" şe`rinə ayrı diqqət edəcəklər. Onun qəzəlləri, rübailəri mə`na rəngarəngliyi baxımından, əlbəttə, düşündürəcək.*

*"Təzadlar" kitabının son hissəsində rus poeziyasından dilimizə çevirdiyi müxtəlif parçalar verilmişdir. XIX-XX əsrlər rus şe`rindən etdiyi tərcümələr ana dilimizdə gözəl səslənir. Bu tərcümələr sözün zərif biçimini, şairanə mə`nasını duyanların zövqünü oxşayacaq.*

Camal Mustafayev

Bu dünyaya nə gətirdim?
Bu dünyada nə qoymuşam?
Nə bir işi tam bitirdim,
Nə həyatdan tam doymuşam...
Hey çalışdım, hey itirdim,
Yoruimadım, uf deмədim...
Nə qazandım, nə götürdüm?
Nisgil qədim, sual qədim.

Səpdiklərim cücərsə də,
Tufanlara sinə gərmiş.
Haqq-ədalət ölməsə də,
Sarsılarmış, incələrmiş...
Doğru yolun hökmü ağır,
Addımbaşı döngələrmiş...
Qəm yağışı və çal-çağır
Bir-birinə tən gələrmiş...

XƏZƏR UNİVERSİTƏSİ

HAMLET İSAXANLI TƏZADLAR

# TƏZADLAR

## HAMLET İSAXANLI



*Zərif harmoniya hissi riyaziyyatçını bəstəkar, yaxud şairlə qohumlaşdırır. Pifaqor ədədlər nisbəti ilə musiqi ahəngini kəşf etmişdi. Rübailər ustası Ömər Xəyyam ciddi riyazi əsərlər yazmışdı... Bu anımları şöhrətli riyaziyyatçı **Hamlet İsaxanlı** poeziyası doğurdu. Hamlet İsaxanlının heyrətamiz çoxcəhətli alimliyi həmişə diqqəti çəkir. Riyaziyyat, fəlsəfə, ədəbiyyat (xüsusilə poeziya), tarix, musiqi... sahələrini öz dünyagörüşündə ehtiva edir. Onun vüs`ətli idrakı rasional təfəkkürlə bədii qavrayışı birləşdirir.*

*Hamlet İsaxanlı doğma xalqına dərin mə`nəvi tellərlə bağlıdır. Bu gerçəyi eyni zamanda onun gözəl poeziyası təsdiqləyir. Yaradıcı xəyalının milli poetik ahəngdə kökləndiyini "Təzadlar" şe`rlər kitabı bariz əks etdirir.*

Camal Mustafayev

# *HAMLET ÌSAXANLI*

XƏZƏR
UNİVERSİTƏSİ

HAI

# TƏZADLAR

HAMLET
İSAXANLI

XƏZƏR UNİVERSİTƏSİ NƏŞRİYYATI
BAKI - 2001

© Xəzər Universitəsi Nəşriyyatı, 2001
Azərbaycan Respublikası, Bakı

Redaktor: Camal Mustafayev

T ə z a d l a r
Hamlet İsaxanlı
İSBN 9952 20 002 1
1. Azərbaycan - poeziya 2. Azərbaycan - ədəbiyyat
3. Azərbaycan - şe'r 4. Azərbaycan - lirika
5.Azərbaycan (Rus) - tərcümə
808 . 81 / 4754 - dc 21

***Türkiyeli okuyucularımıza,***
Azerbaycan alfabesindeki bazı harflerin
Türkiye alfabesindeki harflere geçiş kuralları:

| Azerbaycan | Türkiye |
|---|---|
| **ə**: əl, əcəl, erkən | **e**: el, ecel, erken |
| **q**: qərib, qafil, qəzəl | **g**: garip, gafil, gazel |
| qədər, qələm, qəlb | **k**: kader, kalem, kalp |
| **x**: xəfif, xəstə, xəyal | **h**: hafif, hasta, hayal |
| yox, qorxu | **k**: yok, korku |
| **k**: kiçik, kamal, kəmər | **k**: küçük, kemal, kemer |
| könül, kölgə, keçmək | **g**: gönül, gölge, geçmek |

# İçindəkilər

*Camal Mustafayev.* Poeziya intellektlə qovuşur .... 11
Şe'r yolu ............................................... 25
Səni sevdim çox sadəcə ..................................26
Gözəldir.........................................................28
Dedim-dedi ....................................................30
Sən həyatdan dadlısanmış ................................32
Sevənlərə ......................................................33
Çaşdım, nə çaşdım ..........................................34
Düyməciyin olaydım .........................................35
Duyğu zirvəsində ..............................................36
Bəndə sal .......................................................37
İnciçiçəyi........................................................38
Əzəl qayda .....................................................39
Bağbanın sevgisi ..............................................40
Görüş yerimiz .................................................42
Hicran ...........................................................43
Dərd ..............................................................45
Unuda bilsəydim səni .......................................46
Susma, danış, ay ana!........................................48
Tək qalmaq istəyirəm .......................................53

Dünya……………………………………………..56
Durnalar ………………………………………58
Düşüncənin gərdişi……………………………60
Mö’cüzə gecə…………………………………..61
Durmadan………………………………………63
Bəxtimiz………………………………………..64
Zaman ……………………………………………65
İşıq və qaranlıq …………………………………...67
Uşaqlıqda qalan buludlar………………………68
Yaşamağa nə var ki!………………………...70
Şər və xeyir……………………………………72
Baş açmadım bu dünyadan…………………73
Ömür yolu……………………………………...74
Qədim sual……………………………………..75
Keçmiş……………………………………………76
Dumanlı dünya ……………………………………...77
Dənizdə bir quş……………………………………...78
E’tiraf ……………………………………………79
Qızdırma içində………………………………...81
Tez gəlin………………………………………..82
“Xəzər“imin sorağında …………………………..83
Xəzər Universitəm……………………………..84
Hacı oldun, çox mübarək!……………………...85
Oldu……………………………………………92
Bağlıdır………………………………………94

Vüsal həsrətindəyəm……………………………..95
Fələyin işi…………………………………….....96
Təzadlar………………………………………….. 97
Rübailər…………………………………………...98
Tərcümələr:
V.A.Jukovskiy. Nəğmə …………………………...106
F.İ.Tyutçev. Son məhəbbət………………………..107
F.İ.Tyutçev. Son an……………………………….. 108
A.Fet. Sənə gətirdim salamlar……………………..109
N.S.Qumilev. Mən və Siz………………………….110
A.Axmatova. Mən səninlə şərab içməyəcəyəm…..112
A.Axmatova. Təbii zəriflik gəlməz ölçüyə………..113
S.Yesenin. Cavandım, qəşəngdim ötən əyyamlar 114



# POEZİYA İNTELLEKTLƏ QOVUŞUR

*“Bütün əsl riyaziyyatçılara həqiqi estetik duyğu tanışdır”.*
***Puankare***

Zərif harmoniya hissi riyaziyyatçını bəstəkar, yaxud şairlə qohumlaşdırır. Pifaqor ədədlər nisbəti ilə musiqi ahəngini kəşf etmişdi. Rübailər ustası Ömər Xəyyam ciddi riyazi əsərlər yazmışdı...

Bu anımları şöhrətli riyaziyyatçı Hamlet İsaxanlı poeziyası doğurdu. Onun şe`r sənəti indiyə qədər nəşr edilməmiş qalırdı. Rektoru olduğu Xəzər Universitetində, həqiqətən, coşğun fəaliyyətinə qapılıb. “Xəzər” təhsil, elm ocağı artıq dünya ölçüsündə tanınır: biz bundan qürur duyuruq!

Hamlet İsaxanlının heyrətamiz çoxcəhətli alimliyi həmişə diqqəti çəkir. Riyaziyyat, fəlsəfə, ədəbiyyat (xüsusilə poeziya), tarix, musiqi... sahələrini öz dünyagörüşündə ehtiva edir. Onun vüs`ətli idrakı rasional təfəkkürlə bədii qavrayışı birləşdirir. Dünyanın bir çox nüfuzlu universitetlərində öz zəngin intellektinə görə layiqilə hörmət qazanıb.

Hamlet müəllimin yüksək ziyalı mədəniyyəti, gözəl, nəcib təbiəti onu hər kəsə sevdirir. Milli xarakterimizə xas olan gözəllikləri şəxsi məziyyətində canlandırır. Avropa, Şərq, rus mədəniyyətinə marağı milli zəmindən ayırmır. Bu cəhət onda millinin hüdudlarını daha geniş açır. Qədimdən başlayaraq bədii, tarixi varlığımızı yeni baxışla izləyir.

Hamlet İsaxanlı doğma xalqına dərin mə`nəvi tellərlə bağlıdır. Bu gerçəyi eyni zamanda onun gözəl poeziyası təsdiqləyir. Yaradıcı xəyalının milli poetik ahəngdə kökləndiyini "Təzadlar" şe`rlər kitabı bariz əks etdirir. Bədii ən`ənəmiz zəminində öz fərdi yaradıcılıq tərzini formalaşdırıb. (Ən`ənəyə varislik bağlılığı – sənətdə fərdiliyin səmərəli inkişafının şərtidir).

"Təzadlar" kitabında şe`rlər sayca o qədər çox deyil, ancaq mövzuları çeşidli, rəngarəngdir. Burda şe`rə həssas oxucuları düşündürəcək motivlər az deyil. Gənclərin hisslərini,yaşlıların müdrik fikrini cəzb edən motivlər. Adətən, gənclik məhəbbət lirikasını həvəslə oxumağa meylli olur. Poetik sənətdə lirizm həmişə öz fəal üstünlüyünü saxlayır. Liriklikdə şair "Məni", bütün səmimiyyətilə bədii təcəssüm tapır. Hamlet İsaxanlı poeziyası bu cəhətdən ibrətamiz nümunələrə malikdir. Bu nümunələrdən əvvəlcə "Səni sevdim çox sadəcə" şe`ri üzərində dayanmaq lazım gəlir.

Həmin şe`r real dünyəvi sevginin sadə gözəlliyini canlandırır. Hamlet müəllim qadını Nailə xanıma həsr edib onu. (Nailə xanım özü bu şe`rə gözəl musiqi bəstələyib). Onların gənclikdən başlayan təmiz sevgi hissləri sınaqlardan çıxıb. Bu məhəbbət öz tacını əvvəlcə xoşbəxt evlənmədə tapdı. "Evlənmə məhəbbətin gerçəkliyidir,- deyir Belinski. – Yalnız tamamilə yetkin qəlb həqiqi sevə bilər

və belə halda məhəbbət özünün ən böyük mükafatını evlənməkdə görür və tacın parıltısında solmur, öz ətirli gülünü daha parlaq açır, günəş işığında olan kimi”. Sonra ailə, övladlar bu sevgidən pay aldılar. Beləcə, iki ömrün səadəti neçə-neçə ömürlərə calandı. Sadə, sağlam, inamlı bir məhəbbətdən başladı bu səadət:

...Məcnun olub, dərdli eşqlə səhralara üz tutmadım,
İnsanlardan uzaq düşüb ceyran-cüyür ovutmadım,
Xəyallara səcdə qılıb vüsalını unutmadım...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

Fərhad olub, dəryaları məcrasından döndərmədim,
Xosrov kimi can yanğımı məhəbbətlə söndürmədim...
Dünyanın naz-ne`mətini sənə bəxşiş göndərmədim...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

Bir sözlə, bu, kitablarda oxunan əfsanəvi məhəbbətlərdən deyil. Bu, həyatın axarında doğrulan, onu səadətli edən sevgidir.

Hamlet İsaxanlının sevgi şe`ri müxtəlif çalarlı bir silsilədir. “Gözəldir”, “Sevənlərə”, “Dedim-dedi”, “Sən həyatdan dadlısanmış”, “Duyğu zirvəsində”, “Görüş yerimiz...”, başqa şe`rlər silsiləsi. Bütün bunlar, əlbəttə, ilk əvvəl gözəl gəncliyə ünvanlanıb. “Duyğu zirvəsində” özü oxucunun ünvanını bu sətirlərdə bildirir:

...Dünya -Tanrının töhfəsi,
Sevgi - gəncliyin nəfəsi,
Nə dünya heç, nə sevgi puç!
Qəm evində yatma, könül,
Xəyala dal, qanadlan, uç,
Xəyal - eşqin fəlsəfəsi!

Gerçəkdən: “Xəyal - eşqin fəlsəfəsi” – şairanə deyilmiş müdrik sözdür. Gəncliyin həyat eşqinə ilham verən xəyaldan söhbət gedir.

Ancaq poeziyanın tapındığı məhəbbət geniş növlü bir anlamdır. Gəncliyin eşq aləminin hüdudlarını adlayan sonsuz çeşidli dünyadır. Təbiətə heyranlıqdan başlamış ilahi eşqə qədər tutumu var. Onun mə`nası əzəldən mövcudluğun vəhdətini yaşatmaqla bağlı olub. Valideyn-övlad, xüsusən ana-övlad məhəbbəti bu anlamı şərtləndirən əsas başlanğıclar sırasındadır. Ana mövzusu, təbii olaraq, bədii sənətdə yüksəkdə durur. Həyat axarının qaynağı olan, müqəddəs qayəli ana varlığı! Hər ananın öz taleyi, ömrünün öz dünyası var.

Bu nəcib mövzunu Hamlet İsaxanlı “Susma, danış, ay ana!” şe`rində həssaslıqla canlandırıb. Burda yaradılan ana surəti dərin kövrək duyğulardan yoğrulub. Ömrün ixtiyarlığını yaşayan, zaman yorğunluğundan acizləşən, mərhəmət dolu ehtiram oyadan ana surəti! Nədən daim bu ağbirçək dərin fikirlərə dalan görünür? Nədən sükuta qərq olmaq deyib-danışmaqdan ona üstündür? Bəlkə, xəyal dünyasında ipə-sapa düzür ömür yükünü?

...Baxışların nə məhzun...
Keçmişəmi baxırsan,
Sabahımı görürsən, ay ana?
Cansız barmaqlarınla
Fikir-zikir tellərindən
Nə hörürsən, ay ana?
De, baxırsan hayana?
De, gözlərin yol çəkir
Nə uzun?
Baxışların nə məhzun?

Belə qayğılı suallar, həzin hisslər "Susma, danış, ay ana!" şe`rinə hakim motivdir. İxtiyar ana ruhunu oxşamaq, səsini, təbəssümünü duymaq mə`nəvi ehtiyac kimi təcəssüm edilib. Ana taleyi, müqəddəs övlad borcu xüsusunda düşündürür oxucunu.

Hamlet İsaxanlı poeziyası, sadəcə, bədii zövqü oxşamaqla məhdudlaşmır. Onda estetiklik canlı fikirlə vəhdətdə poetik əksini tapır. "Söz fikirlə canlananda mövcud varlığa çevrilir", - Hegelin bu kəlamını burda demək münasibdir. Bu, təzadlı gerçəkliyin batini mahiyyətinə varmaq niyyətindən doğur. Düşünən "Mən" dünya gedişatından mə`na çıxarmağa ehtiyac duyur. İnsan-dünya nisbətini düşünmək şe`rdə, sənətdə daimi mövzudur. Hamlet İsaxanlı eyni mövzunu müxtəlif əhval-ruhla canlandırıb. Bə`zi şe`rlərində mə`nəvi "Məni" zahiri təzadlara qarşı qoyur. Özü üçün sağlam istinadgahı öz ruhuna mərkəzləşməkdə görür. Yaradıcı yalnızlıqda aradığı gerçəkliyə məhrəm arzu kimi baxır:

...Təklik –
Fikrimin süsləndiyi
Ən uca yüksəklik.
Təklik -
Xəyalımın bəsləndiyi
Ən xoş gerçəklik.

*("Tək qalmaq istəyirəm")*

Təklik, sakitlik istəyi zahiri mövcudluğun aldadıcı görüntülərindən təcrid olub, yaradan ruha sığınmaqdır. Yaradıcı öz "Məni"nə dönəndə ilhamı uçmağaənginlik tapır. Gerçəkliyin səthində-təsadüflər qarışıqlığında ilham, xəyal qanadlana bilməz. Ruhun həyatına dönmək dünya müəmmalarını içəridən dərk etməkdir. İdealla gerçəklik arasında ziddiyyət burda kəskin hiss edilir. Poeziya bu ziddiyyəti daha bariz şəkildə əks edir. O cümlədən poetik fikrimizdə ən`ənəvi olan "Dünya" şe`rləri. Hamlet İsaxanlı bu ən`ənəni öz fərdiliyinə uyğun yaşadıb. "Dünya", "Dumanlı dünya", "Baş açmadım bu dünyadan" şe`rlərindən bunu aydın görmək olur. Birincidə romantik bir əhval-ruhla dünyadan söhbət açır. Onun düşüncələrində həyatın gözəlliyinə heyranlıq ahəngi açıq duyulur. Həyata inam, sevgi, ümid dolu nəş`əli hisslər yaşayır:

Ümid xəfif olsa belə, könüllərə şəfəq saçar,
Xoş əməllər bar gətirər, xoş niyyətlər çiçək açar.
İnsanlara qanad verən sevgi adlı mö`cüzə var,
Nəhayətsiz eşq, ehtiras, duyğu çələngidi dünya.

Həyati başlanğıcları belə romantikləşdirmək ideal baxımdan irəli gəlir. Yaşamaq, mə`nalı ömür, əlbəttə, özü ən ali ne`mətdir. Ancaq bu qoca dünyada həyat zərurətdir, ölüm-qaçılmaz. Üstəlik, bütün varlığı sarsıdan qanlı savaşlar, dürlü faciələr:

...Sükunətin sinəsində rəqs eyləyir vəlvələlər,
Ölüm-dirim davasıdı, aramsız cəngidi dünya.

Yaradılışın əksliyi – ölüm sonluğu, qırğınlar – kədər, əndişə doğurur:

...Qəlbimdəki təlatümlər müdhiş həyəcan zəngidi,
Duysan lərzəyə düşərsən, gidi dünya, gidi dünya...

Ziddiyyətli gerçəkliyə münasibət özlüyündə mühəqqəq tənqidi fikrə gətirir. Bu tənqidin biçimləri, şübhəsiz, çeşidli olur, xüsusilə şe`rdə. Bunu Hamlet İsaxanlı poeziyasında maraqla müşahidə etmək olur. İctimai mövcudluqda müxtəlif fənalıqların fəallığı onu narahat edir. Həyata inamla birgə şübhəçilik çalarları daşıyan düşüncələrə qapılır:

...Haqqa sığınan döyülür,
Haqqı tapdayan öyülür,
Düz söz söyləyən söyülür,
Başa keçir yalan, nadan,
Baş açmadım bu dünyadan.

Gəl, ey həyat, həmdəmimsən,
Həm qəmimsən, həm dəmimsən,
Çox düşündüm, nəsən, kimsən?
Əl çəkmədim bu xülyadan,
Baş açmadım bu dünyadan.

Gətirilən sətirlərdə şübhəçilik çalarları idrakdan əl çəkmək deyil, həqiqəti anlamağa sövq edir. (Hüseyn Cavidin söylədiyi kimi: "Şübhədir hər həqiqətin anası, Şübhədir əhli - hikmətin babası...").

Cəmiyyətdə istəklərin, talelərin, insan təbiətinin əksliyini düşündürən "Təzadlar" qəzəli bu cəhətdən maraqlıdır.

Ömrün mə`nası mövzusu ayrıca "Qədim sual", "Ömür yolu" şe`rlərində ibrətamiz əks edilib. Tərəqqili, tənəzzüllü, sevincli, kədərli ömür yolunun qısalığından söz açır. "Ömür yolu yol deyil ki..., Ömür yolu bircə andır..." hökmü ilə fikrini vurğulayır. Əbədilik axarında insanın payına ayrılan qısa zaman mövzusu həmişə təfəkkür obyekti olub. Platon bu xüsusda belə söyləyib: "Qısa zamanda böyük nə ola bilər? Əbədiliklə nisbətdə bizim uşaqlığımızdan qocalığımıza qədər bu müddət çox qısadır".

İnsan zaman qismətində nə qədər mə`nalı həyat keçirir? Həyatın tərəqqisinə hansı xeyirli niyyətlə, əməllərlə xidmət edir? Bu qədim sualı cavablandırmaq üçün mə`nəvi haqqın olmalıdır. Özün nəcib niyyət daşıyıcısı, xeyir əməl sahibi olmalısan. Hamlet İsaxanlı bir yaradıcı, qurucu kimi buna nümunədir. Məşhur Xəzər Universitetini yaradanda, dünyada tanıdanda çətinliklərlə üzləşib, ancaq öz idealından dönməyib. Onun "Xəzər Universitəm", "Xəzər"imin sorağında", şe`rləri bu ideala bir daha sədaqətini bildirir. (Birinci – həmin universitetin himni kimi - bizə yaxşı tanışdır. Bu şe`rə görkəmli bəstəkarlarımız Ramiz Mustafayev və Vasif Adıgözəlov birgə musiqi bəstələyiblər. "Xəzər"imin sorağında" şe`rinin musiqisi Ramiz Mustafayevə məxsusdur.

Hamlet İsaxanlı yaradıcılıq, quruculuq sahəsində daima yeni axtarışlardadır. Öz uğurları ilə məhdudlaşmaq onun təibətinə tamam yaddır:

Bu dünyaya nə gətirdim?
Bu dünyada nə qoymuşam?
Nə bir işi tam bitirdim,
Nə həyatdan tam doymuşam...
Hey çalışdım, hey itirdim,
Nə yoruldum, nə uf dedim...
Nə qazandım, nə götürdüm?
Nisgil qədim, sual qədim.

Səpdiklərim cücərsə də,
Tufanlara sinə gərmiş.
Haqq-ədalət ölməsə də,
Sarsılarmış, incələrmiş...
Doğru yolun hökmü ağır,
Addımbaşı döngələrmiş...
Qəm yağışı və çal-çağır
Bir-birinə tən gələrmiş...

*("Qədim sual")*

Bu yazıda şərh edilən şe`rlərdən Hamlet İsaxanlının təbiətən həssaslığı öz-özünə duyulur. Onun həssas xarakteri eyni zamanda ana təbiətə münasibətdə müxtəlif şəkildə təzahür edir.

Təbiətin sirlərinə heyranlıq, onu canlı varlıq kimi təsəvvür etmək insanı nəcibləşdirən amildir. Təbiət – xəyalın əzəl mə`bədi, ilham pərisinin ilk beşiyidir. Poeziyanın doğuşu bu müqəddəs səcdəgaha ehtiramla tapınmaqdan başlayıb. "İnsan yaradıcı kimi özündə təbiətdən əxz etdiyi bir dünya məzmun daşıyır" (Hegel). Yeri gələndə bu məzmun bədii əsərdə təcəssüm tapır. Xüsusən uşaqlıqda təbiətlə bağlılıq-hafizənin qoruduğu xatirələrə çevrilir. Bu

mə`nada, Hamlet İsaxanlının "Uşaqlıqda qalan buludlar" şe`ri oxucunun diqqətini cəlb edir. Bir zaman mə`sum baxışla göyləri seyrə dalanda xəyalının bağlandığı buludları nədən anır? Ölkələrə səfərində təyyarələrdə buludlar arasından keçib, ancaq bunlar onun könlünü heç açmayıb. Səbəbi – uşaq xəyalında bəslənmiş mö`cüzənin və gözəlliyin yox olması; bunun üçün ilk təbiət təəssüratını həsrət hissilə yaddaşında canlandırır:

...Uşaqlıqda qalan bulud
Kövrək uşaqlığım kimi
Dilləndirdi sarı simi,
Varlığıma kölgə saldı.
O buludlar, o uşaqlıq
Daha geri dönməz oldu,
O iz ürəyimdə qaldı,
O məhəbbət sönməz oldu.

Eynilə "Durnalar" şe`ri elə bu baxımdan mə`na qazanır. Poeziyada "Durnalar", əslində, bir həsrət, kədər motivi daşıyıb. (Vidadinin, Vaqifin eyniadlı şe`rləri zehnimizə nəqş edilib). Ancaq indi bu mövzuda səslənən həsrətli, kədərli motiv, həmçinin, ekoloji böhrandan doğur:

...Yolları örtdümü dumanlı pərdə?
Təmiz hava qalmadımı göylərdə?
Daha yoxmu sizi sevən bu yerdə?
Küsdünüzmü qadir haqdan, durnalar?...

Təbiət sevgisi həmişə mərhəmət hissilə ayrılmaz vəhdət yaradır. Mərhəmətlilik-siqlətli etik məzmuna malik

olan bir anlamdır. Həssaslıq, qəlb yumşaqlığı mühüm insani keyfiyyət kimi dəyərləndirilir. Başqasının kədərli taleyinə acımaq duyğuların saflığını, nəcibliyini qoruyur. İnsanın bu ürək yaşantısında təbiət varlığı istisna deyil. Bu cəhətdən "Dənizdə bir quş..." şe`ri daşıdığı həyəcana, təlaşa görə mütəəssir edir:

İstanbul, Boğaziçi...
Tüğyan edir dalğalar.
Dayan bir an, gəmiçi,
Dənizdə bir quş ağlar.

Qırılmışdır qanadı,
Qalıb suyun üzündə.
İşlər yaman fənadı,
Qəm oxunur gözündə.

Güvəndiyi göy sular
O quşa qənim oldu.
Üzüntülü duyğular,
Ağrılar mənim oldu.

Hamlet İsaxanlının şe`rlərini oxucular özlərinin mə`nəvi-estetik maraqlarına, zövqlərinə uyğun kəşf edəcəklər. Mö`minlər dini anlamlarla zəngin "Hacı oldun, çox mübarək!" şe`rinə ayrı diqqət edəcəklər. Onun qəzəlləri, rübailəri mə`na rəngarəngliyi baxımından, əlbəttə, düşündürəcək. Rübaidə Ömər Xəyyam ən`ənəsi ruhunda mövcudluğun mahiyyətinə varmağı bədii fikrinin məqsədi edir. Bu janrda yazdıqlarının təhlilinə çalışmadan, heç olmazsa, bə`zi nümunələri iqtibas etmək lazımdır:

...Dünəni yaşadım, dünəndə bitdi,
Uşaqlıq qayğılar dinəndə bitdi.
Qısqanclıq, çılğınlıq dolu səhnələr
Ömrümüz payıza dönəndə bitdi.

Gözəllik seyrinə dalmaq üçündür,
Məhəbbət ürəkdə qalmaq üçündür.
Həyat hərəkətdir, gəlib-gedəndir,
Əməl həyatdan bac almaq üçündür.

...Nədir ölçü, nədir çəki dünyada?
Sevgi hökm edəydi təki dünyada.
Öləcəm qəlbimdə son məhəbbətim,
Gör necə xoşbəxtəm iki dünyada...

"Təzadlar" kitabının son hissəsində rus poeziyasından dilimizə çevirdiyi müxtəlif parçalar verilmişdir. XIX-XX əsrlər rus şe`rindən etdiyi tərcümələr ana dilimizdə gözəl səslənir. Bu tərcümələr sözün zərif biçimini, şairanə mə`nasını duyanların zövqünü oxşayacaq.

Hamlet İsaxanlıya çoxcəhətli yaradıcılığında, səmərəli təhsil quruculuğunda, şəxsi həyatında böyük uğurlar arzulayıram.

***Camal MUSTAFAYEV***



## Şe’r yolu

Məchul bir yürüşə çıxıbdı şe’rim,
Göylərdən yerlərə enir astaca.
Kiminlə görüşə çıxıbdı şe’rim?
Öz xəyal atını minir astaca...

Ürəyimdən qopur, üzülüb gedir,
Qələmdən kağıza süzülüb gedir,
Qaydalı, qaydasız düzülüb gedir-
Doğulur astaca, dinir astaca.

Elə ki şe’rlə dolur varağım,
Bir vüsal sevinci duymuram niyə?
Astaca-astaca sönür marağım,
Nədən öz yazıma durmuram yiyə?

Başqa bir sevdaya gəlir gümanım,
Gerçək dünyamızdan uzaqlaşıram,
Yeni bir şe’rlə qaynayır qanım,
Təzə bir aləmlə qucaqlaşıram.

Axtarış, ehtiras şe’rin canıymış...
Könlümü oynadan şe’r deyilmiş,
Şe’rə gedən yolun həyəcanıymış...

## Səni sevdim çox sadəcə...

Səni sevdim gündən-günə daha dolğun, daha incə,
Düşünmədən, daşınmadan, bər-bəzəksiz, çox sadəcə.
Səni sevdim yerə həsrət yağış kimi, leysan kimi,
Səni sevdim gözəlliyə heyran olan insan kimi.
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

Mahnılarda anılmadım, dastanlarda yoxdur adım;
Kərəm ünlü aşiqlərin cərgəsində yer almadım,
İçimdəki ağrıların atəşindən kül olmadım...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

Məcnun olub, dərdli eşqlə səhralara üz tutmadım,
İnsanlardan uzaq düşüb ceyran-cüyür ovutmadım,
Xəyallara səcdə qılıb vüsalını unutmadım...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

- *Bu şe'rə Nailə xanım İsayeva musiqi bəstələmişdir.*

Fərhad olub, dəryaları məcrasından döndərmədim,
Xosrov kimi can yanğımı məhəbbətlə söndürmədim...
Dünyanın naz-ne'mətini sənə bəxşiş göndərmədim...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

Romeo tək tez od alıb yanmaq üçün doğulmadım,
Vaqif kimi pəri, sona göllərində boğulmadım,
Otello tək qısqanclıqdan, ehtirasdan yoğrulmadım...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

Koroğlu tək eşq yolunda davalara alışmadım,
Haray salıb gözəllərin məclisinə qarışmadım;
İste'dadlı aşiq kimi Füzuliylə yarışmadım...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

Səni sevdim gündən-günə daha dolğun, daha incə,
Düşünmədən, daşınmadan, bər-bəzəksiz, çox sadəcə.
Səni sevdim yerə həsrət yağış kimi, leysan kimi,
Səni sevdim gözəlliyə heyran olan insan kimi...
Sadəcə, çox sevdim səni,
Səni sevdim çox sadəcə!..

## Gözəldir

Bulaq çaya dönür, axır şırhaşır,
Sevdalı meşədə kim pıçıldaşır?
Hər yanda mö'cüzə, xəyalım çaşır,
Aran da gözəldir, dağ da gözəldir!

Torpaqdan uzaqda, tozdan uzaqda,
Hərcayi, töhmətli sözdən uzaqda,
Qol-qola gəzməyə gözdən uzaqda
Bağça da gözəldir, bağ da gözəldir!

Rəng verər gözəlin üzü, rəng alar,
Utanıb qızarar, dərddən saralar,
Binadan aybəniz, ya əsmər olar,
Qara da gözəldir, ağ da gözəldir!

Ürək çırpınanda, göz çağıranda,
Nəfəs bir olanda, dil lal olanda,
Dodaq can atanda, sifət yananda,
Sol yanaq da gözəl, sağ da gözəldir!

Yarım qana-qana köks ötürəndə,
Bostanı gül açıb bar gətirəndə,
Aşiq o yerlərdə baş itirəndə,
Şamama da gözəl, tağ da gözəldir!

Yar nazı çəkməyə güc çatmayanda,
Doğru söz qulağa heç batmayanda,
Dözmək iste'dadı yoxsa mayanda,
Tə'nə də gözəldir, lağ da gözəldir!

Bir kəs ki, olubdur eşq avarəsi,
Sağalmaz qəlbini didən yarəsi,
Öldürər, dirildər, yoxdur çarəsi,
Ölən də gözəldir, sağ da gözəldir!

## Dedim-dedi

Dedim: Eşq əlindən yarın xəstədir,
Dedi: Xəstə düşən dəstə-dəstədir.
Dedim: Bil, qulağım hələ səsdədir...
Dedi: Aç gözünü, bağlıdır yollar.

Dedim: Məclis quraq kamanla, neylə,
Dedi: Aram yoxdur məzəylə, meylə.
Dedim: Yar bağında mənə yer eylə,
Dedi: Döşəyindir tikanlı kollar.

Dedim: Gözlərində şeytan görmüşəm,
Dedi: Naz-qəmzəylə ömür sürmüşəm.
Dedim: Qulluğunda hazır durmuşam,
Dedi: Çox sürünmə, rəngin tez solar.

Dedim: Yalvarıram rəbbül-aləmə,
Dedi: Alıbsanmı çalma, əmmamə?
Dedim: Rəhm et, ömür yetir tamamə,
Dedi: Yetişməyən ömür kal olar.

Dedim: Dodaqların azca aralı,
Dedi: Busələrdən dilim yaralı.
Dedim: Qucaqlaram şıltaq maralı,
Dedi: Səadətlə qucağın dolar!

Dedim: Canım çıxır sən yeriyəndə,
Dedi: Xoşum gəlir qar əriyəndə,
Dedim: Bədən ölür qəlb kiriyəndə,
Dedi: Ruhun ilə oynar bu qollar.

**Sən həyatdan dadlısanmış**

Eşq mülkünə ayaq basıb,
Baş itirmək nə asanmış...

Dodaqların ləbi-dərya,
Və’dlərin quru lisanmış.

Oxa döndün, yoxa çıxdın,
Bir xəyal qanadlısanmış.

Can almaqda tayın yoxdur,
Qız, nə iste’dadlısanmış!

Şirinliyin, turşməzənlə
Sən həyatdan dadlısanmış.

## Sevənlərə

Həyata bolluca qucaq açınız,
Sevgidən od alsın arzularınız.
Yerdə dayanmayın, göydə durmayın,
Uçsun yel qanadlı xəyallarınız.

Gündüzlər günəşdən, gecələr aydan
Zərif işıq əmsin duyğularınız.
İnsanı, torpağı, Allahı sevin,
Eşqə səcdə qılsın qayğılarınız.

## Çaşdım, nə çaşdım!

Sən gəzdiyin guşələrdə məskən saldım,
Gedişindən, gəlişindən ilham aldım,
Eşq nəğməsi qoşdum, gülüm, gör nə qoşdum!
Gəl-gəl deyən dillərinə möhtac qaldım,
Cənnət yolu dodağından məlhəm aldım,
Atəşləndim, coşdum, gülüm, gör nə coşdum!

Bir ovçuyam, nə oxum var, nə də nizəm,
Ayaq saxla, yorğun düşmüş bəndənizəm,
Dağlar, daşlar aşdım, gülüm, gör nə aşdım!
Zənn etmə ki, solğun, cansız kölgənizəm,
Çılğınlaşmış, fırtınalı bir dənizəm,
Sahilimdən daşdım, gülüm, gör nə daşdım!

Nə çox imiş üzüyola aşiqlərin,
Tər tökürlər qulluğunda dərin-dərin,
Mənsə səndən qaçdım, gülüm, gör nə qaçdım!
Sənsizliyim şe’rə hopur sərin-sərin,
Diz çökürəm hüzurunda kəlmələrin,
Bu sevdada çaşdım, gülüm, gör nə çaşdım!

## Düyməciyin olaydım

Kaş sinəndə düyməciyin olaydım,
Gah örtülü, gah da açıq qalaydım.
Sığınaydım həyəcanlı köksünə,
Sinən üstə eşq havası çalaydım.
Gur saçların rəqs edəndə şur ilə,
İlişəydim, tellərini yolaydım.

Kaş sinəndə düyməciyin olaydım,
Gecə-gündüz səndə qonaq qalaydım.
Növrəstə ay göy üzündən baxanda
Nurlanaydım, nəş'ə ilə dolaydım.
Odlu günəş canı oda yaxanda
Özüm yanıb sənə kölgə salaydım.

## Duyğu zirvəsində

Günəş şö'lə həvəsində,
Ay tən olur və'dəsində,
Nə ay batsın, nə gün solsun!
Arzuya hədd qoyma, könül,
Ömrümüzə şəfəq dolsun,
Yaşa duyğu zirvəsində!

Dünya-tanrının töhfəsi,
Sevgi-gəncliyin nəfəsi,
Nə dünya heç, nə sevgi puç!
Qəm evində yatma, könül,
Xəyala dal, qanadlan, uç,
Xəyal-eşqin fəlsəfəsi!

## Bəndə sal

Qoşa çaylar
Göy dənizdə qarışdı.
Bir xoş gündə
Ulduzumuz barışdı.

Soyuq sözlər
Ürəyimi üşütdü.
Qaynar yanaq
Can evimi isitdi.

Gözlərinlə
Gözlərimə işıq ver.
Gülüşünlə
Gülşənə dönsün hər yer.

Naz-qəmzənlə
Ağlımı bu başdan al.
Şirin dillə
Qul bəndəni bəndə sal.

## İnciçiçəyi

Sən gözələ gözüm düşüb,
Elin elimdən,
Dilin dilimdən.
Fələk elçi düşsə belə
Vermərəm əlimdən.

Naz eyləsən, əl ataram
Hər fəndi-felə,
Əlləşmə göylə,
Eşqimə aç qucağını,
Şükürlər eylə.

Sənsiz gülşənim puç olar,
Duy bu gerçəyi,
Çöllər göyçəyi.
Sən məni məst eyləyibsən,
İnciçiçəyi.

## Əzəl qayda

Canan canan olmazdı
Ürəyə dağ çəkməsə,
Aşiqinin başına
Od ələyib tökməsə,
Yarı yedəyə alıb,
Boynuna kəndir salıb
Arxasınca çəkməsə.

Gözəl gözəl olmazdı
Sevgilisi əyilib
Önündə diz çökməsə,
Gah köksünü ötürüb,
Gah boynunu bükməsə.

O, dilbərdir, o, afət,
Gözləməyin gözəldən
Təkcə incə lətafət,
Təkcə şəfqət, afiyət.
Cananın can almağı
Bir qaydadır əzəldən.

## Bağbanın sevgisi

*(Zarafatyana)*

Sənə möhtac qalmışam,
Yaralıdır zümzüməm.
Heyvayam, saralmışam,
Giləlbənən üzüməm.

Dilin yemiş dilimi,
Burnun kiçik tər xiyar.
Bərabərin tapılmaz
Dolaşsaq diyar-diyar.

Üzündə qızıl alma,
Xalların qara kişmiş.
O, hansı bəxtəvərdir
Sən gözələ ilişmiş?

Gözün badam ləpəsi,
Ortası çiyələkmi?
Orda bir çağrı gördüm,
Doğrumu, ya kələkmi?

Yanağın al şaftalı,
Dodağın tazə ərik.
Bizi qonaq çağırsan,
Qaça-qaça gələrik.

Bağ-bağçanın narı sən,
Mənsə solğun budağı.
Bostanın bol barı sən,
Mənsə yerdəki tağı.
Gözə az görünürəm,
Dalınca sürünürəm.

## Görüş yerimiz

Sərìn gecələr
Yalnız küçələr
Şəhər dìncələr
Bìz gəzìşərdìk.

Batdım günaha
Qınama daha
Üz tut sabaha
Dəyìşmìş hər şey...

Dəyìşmìş təmìz
Görüş yerìmìz -
Ìndì röyamda
Görüşürük bìz.

Gecələr sərìn
Əlìmdə əlìn
Göy çəmənlərìn
Qoynundayıq bìz.

Heyìf kì, sənìn
Yoxdur xəbərìn -
Gündüz qədərìn
Gecə bìzìmdìr...

Ruzgar dönəndə
Ay görünəndə
Fikrə dalırsan
Bilirəm sən də.

Yüz min fikrə dal
Dəyişməz bu hal.
Gör, yalnız küçə
Darıxır necə?!
Bizimdir xəyal
Bizimdir gecə!

## Dərd

Dərdə düçar olmuşam,
Dərd düyündür, açılmaz.
Dərdə düçar eyləyən
Dərdimə çarə qılmaz.

Günəş dərddən əyilib,
Üfüqlərdə sürünsə,
Ay buluda bürünsə,
Aləmə nur saçılmaz.

Dərdim dağa dönübdür,
Başı dərddən açılmaz.
Eşq dərdi yaman dərddir,
Eşq dərdindən qaçılmaz.

## Hicran

Keçən günlər keçdi, getdi,
Doğrudanmı hər şey bitdi?
Ürək bizə üsyan etdi,
Nə mən dindim, nə sən dindin.

Bayılırdıq işvələrdən,
Ayılırdıq hərdən-hərdən,
Unudulmaz o günlərdən
Nə mən döndüm, nə sən döndün.

Dodaq susdu, göz ağladı,
Payız qışı soraqladı,
Şaxta vurdu, buz bağladı,
Nə mən dondum, nə sən dondun.

Hicran min cür oyun qurdu,
Kim əl qatdı, kim buyurdu?
Kədər cumdu ordu-ordu,
Nə mən yendim, nə sən yendin.

Canımızı həsrət üzdü,
Ayrılıqlar ölçüsüzdü,
Bilməm ürək necə dözdü?
Nə mən qandım, nə sən qandın.

Çərxi-fələk etdi xəta,
Hicrandan olarmı əta?[1]
Yəhərlənmiş qoşa ata
Nə mən mindim, nə sən mindin.

Kölgə çökdü gözümüzə,
Külələndi üzümüzə,
Bənzəmədik özümüzə
Nə mən məndim, nə sən səndin...

1. *bəxşiş (ə.)*

## Unuda bilsəydim səni

Səni sevmişdim
İlk gəncliyimdə,
Sənə bağlanmışdı
Hər ilim də,
Hər günüm də.
Sənsə dəyişdin...
Gah mənimlə döyüşdün,
Gah mənim kölgəmlə,
Gah da özünlə.
Məni üşütdün
Ucuz-ucuz, bumbuz
Sözünlə.
Duyulmadın,
Get-gedə söndün
Qəlbimdə titrəyən simdə.
Zəhərə döndün
Dilimdə.
Sən oldun
Vaxtsız sönən zilim də,
Sönməyən nisgilim də.

Sənə yer tapılmadı
Qar yağan, şaxta vuran
Qəlbimdə.
Söylə, günah kimdə?
Eh, nə fərqi var?...
Yaramı sağalda bilməz
Dünyanın o başından gəlmiş
Məşhur həkim də.
Könlümdəki şəhəri
Məhv etdin,
Ey qədirbilməz.
Daha üzüm gülməz,
Qaranlıq bürüdü
Hər yeri,
Açılmaz bir daha səhər.
Eh!...
Ey dili zəhər,
Unuda bilsəydim səni
Birtəhər...

## Susma, danış, ay ana!

Səssizliyin nə dərindir, ay ana,
Səssizliyin inildəyir içimdə.
Bu ölçüdə, bu biçimdə
Səssizliyə dözmək olmur, ay ana.
Eşitməsəm səsini,
Duymasam nəfəsini,
Gen dünyada
Rahat-rahat gəzmək olmur, ay ana.

Səssizliyin səsi-
O deyilmi
Səsin ən yüksək mərtəbəsi?
Gözlərim qaralır;
Danış, ay ana, dillən,
Səbrim daralır.
Səsinin qanadları
Alsın məni qoynuna,
Sarılım boynuna,
Eşidim həzin səsini,
Duyum doğma nəfəsini, ay ana!

Səssizliyin də mənə tanış,
Səsin də.
Danış, ay ana, susma, danış!
Danışanda gülür həyat,
Səssizliyin qəlbimdə qoparır
Fırtına, tufan, fəryad,
Səssizliyin pozur dincliyimi.
Səssizliyinlə keçən gəncliyimi
Həmişəlik qoydum arxada, ay ana.
İndi sənsən mənə
Təsəlli də, arxa da.

İnsaf et, danış, ay ana,
Sözlərin canıma yayılsın
Sapsarı yağ kimi.
Taleyim qəm mürgüsündən ayılsın,
Dəmlənsin, kefdən bayılsın
Çən-çiskini çəkilmiş
Çiçəkli dağ kimi.
Sən susanda
Canımı odda yandırırsan, ay ana.
Danışanda
Ruhuma sığal çəkən
mələkləri andırırsan, ay ana.

Baxışların nə məhzun...
Keçmişəmi baxırsan,
Sabahımı görürsən, ay ana?
Cansız barmaqlarınla
fikir-zikir tellərindən
Nə hörürsən, ay ana?
De, baxırsan hayana?
De, gözlərin yol çəkir
nə uzun?
Baxışların nə məhzun?

Danış, gül, sevin, ay ana!
Sən güləndə qəlbim oynar yerindən,
Nəfəs allam dərindən.
Gülüşün niyə səssiz,
Qəhqəhən niyə ürkəkdir, ay ana?
Yoxsa gülüşün
Qüssənlə qonşumudur?
Yoxmu qismətində ürəkdən gülmək?
Qədərin cilvəsi bumudur?

Yamanca qocaldın, ay ana,
Bükülüb kiçildin;
Kiçildikcə sən böyüdün gözümdə.
Qarşında baş əydim,
Səcdəgahımsan ümdə.
Qocalıbsan, ay ana,
Yaman qocalıbsan;
Qocalığın da səssizliyin kimi
Göynədir içimi.
Gücsüzlükdən kəsər qalmır sözümdə,
Ay ana...
Gücsüzlükdən kiçilirəm
Öz gözümdə özüm də,
Ay ana...

Xatirində keçmişlərin üzüntüsü,
Gözlərində gələcəyin hüznü var.
Sənə yasaq yoxdur,
Nə istərsən de, danış, ay ana,
Gileyində İlahinin izni var.
Danış, nəğmə söylə, ay ana,
Zümzüməndə Füzulinin vəzni var.

Baxma uşaq olmayan yaşıma,
Əlini çək başıma, ay ana,
Gücsüz əllərinə ehtiyacım var.
Qayğılı gözlərinə,
Sayğılı sözlərinə
Ehtiyacım var, ay ana...
Susma, qurbanın olum...
Danış, ay ana!

## Tək qalmaq istəyirəm

Yoruluram
Şəhərlərin hay-küyündən,
Qaçmaq istəyirəm hərdən
İnsanlardan, bu gündən.
Bezirəm
Müdrik səbrdən,
Dünyanın gərdişinə dözümdən;
Uzaqlaşmaq istəyirəm
Özümdən.

Böyük-böyük iclaslarda,
Haylı-küylü məclislərdə
Sevmirəm söz deməyi,
Ya boş sözü dinləməyi.
Əvəzində,
Düşünürəm xəfif-xəfif...
Bu yandasa bir hərif
Kürsüdən yağdırır
Tə’rif, tə’rif, tə’rif.
Lüğətində yoxdur qürur,
Cümləsində çox azdır
Xoş mübtəda, yaxşı xəbər,
Amma sifət nə qədər...
Sifət, sifət...
Özümü ələ alıram,
Şeytana lə’nət.
İçimdə boğulur nifrət
ətək-ətək,
tək qalmaq istəyirəm, tək.

Gündəlik qayğılar
Başımdan aşanda,
Dünyanın haqsızlığı
Aşıb, daşanda
Sıxır məni
Şövkət də, şan da,
Toy da, nişan da.
Qaçmaq istəyirəm
Gurultulu çal-çağırdan,
Zəngindən, fağırdan.
O anda
Bir sadə tütək almaq
Və təklik havası çalmaq
Keçir ürəyimdən.

Gözlərimi yumuram
əlacsız qalanda.
Təkliyə cumuram
İlk imkanım olanda.
Təklik -
fikrimin süsləndiyi
ən uca yüksəklik.
Təklik –
xəyalımın bəsləndiyi
ən  xoş gerçəklik.

## Dünya

Məhəbbətə sığınaraq dünyamıza göz açmışıq,
Torpaq üstə ayaq açıb asimana can atmışıq,
Duyub, görüb-götürmüşük, kövrək hisslərə çatmışıq,
Cilvələnib arzu, əməl, rəngbərəng sərgidi dünya.

Zərif şamdır hər yaranan, yanır, yanır, yoxa çıxır,
Kim yandırır, kim söndürür, bu gərdişə kimlər baxır?
Göylər sonsuz, vaxt hüdudsuz, bilinməyir əvvəl-axır,
Ənginlikdən ağıl çaşır, tanrı ahəngidi dünya.

Tarix mürgü içindədi, yaddaşında yatır nələr...
Bir tərəfdə qurd ulaşar, bir tərəfdə quzu mələr.
Sükunətin sinəsində rəqs eyləyir vəlvələlər,
Ölüm-dirim davasıdı, aramsız cəngidi dünya.

Ümid xəfif olsa belə, könüllərə şəfəq saçar,
Xoş əməllər bar gətirər, xoş niyyətlər çiçək açar.
İnsanlara qanad verən sevgi adlı mö’cüzə var,
Nəhayətsiz eşq, ehtiras, duyğu çələngidi dünya.

Dünyagörmüşlər söylədi: dünya gəldi-gedərgidi,
Ölümlüdü, olumludu, hikmət, möhnət nəhəngidi.
Qəlbimdəki təlatümlər müdhiş həyəcan zəngidi,
Duysan, lərzəyə düşərsən, gidi dünya, gidi dünya...

## Durnalar

Nə zaman ki, aşiq həmdərd gəzərdi,
Göy üzünü durna səfi bəzərdi.
Qəzanın  hökmüdü, ya bədnəzərdi,
Pozulub sıranız çoxdan, durnalar.

Qaqqıltınız külli-elə yetərdi,
Könül nəş'ələnər, bayram edərdi,
Qız-oğlanlar yolunuzu güdərdi,
Gəlsəniz də lap uzaqdan, durnalar.

Bağdad ellərində xurma bitərdi,
Xurmalıqda durna teli itərdi.
Həyatınız  təhlükəydi, xətərdi,
Ayrılanda kaman oxdan, durnalar.

Yolları örtdümü dumanlı pərdə?
Təmiz hava qalmadımı göylərdə?
Daha yoxmu sizi sevən bu yerdə?
Küsdünüzmü qadir haqdan, durnalar?

Eşqinizlə ötmür daha telli saz,
Dərdinizi çəkən azalır az-az,
"Nazənin-nazənin etmirsiz avaz"[1],
Dəyişmişik lap nahaqdan, durnalar.

1. *M.P.Vaqifin (1717-1797) "Durnalar" qoşmasındakı "Nazənin-nazənin edirsiz avaz" sətrinə işarədir.*

## Düşüncənin gərdişi

Köhnədir bəşər qədər
Düşüncənin gərdişi.
Ömür keçməsin hədər,
Budur xilqətin işi.

Yetişdi necə, nədən
Fikrin zatı, mayası?
Sehrli ayinədən
Oxunaydı ayəsi[1].
Hissədirsə, tamı nə?
Əsrardır[2] aliyəsi[3].
Nişangahı, kamı nə?
Bəlkə, sevgi dünyası,
Ya kamillik xülyası?
Sonu yox, tükənməyir,
Zamandır himayəsi.
Yel atından enməyir,
Coşğunluqdur qayəsi.

1. *nişan, işarə, əlamət (ərəbcədən)*
2. *sirlər (ə.)*
3. *yüksək, uca (ə.)*

## Durmadan

İşıqlar qaranlığa,
Qaranlıqlar işığa
Dönür, dönür durmadan.
Dünya dinclik bilməyir,
Yanır, sönür durmadan.
İşıqlarda, kölgədə
Keçir ömür durmadan.

## Mö'cüzə gecə

Gün axşama dönüncə
Qarabuğdayı gecə
Öz gündüz yuxusundan
Qaş-qabaqla oyanır,
Tutqun rəngə boyanır.
Qaraqaş, qaragözlüm
Başım üstə dayanır.
Münəvvər əllərində
Ürkək-ürkək şam yanır.

Fikrim cövlan eyləyir
Gecənin gur yerində,
Göyün dərinliyində.
Ulduzlarla yol gedir,
Aya eşq e'lan edir.
Səadətə bələnir,

Göydən yerə ələnir,
Allah, bu hisslər nədir?
Nə gözəldir gecələr...
Göylər gözünü açır,
Ayın ayna camalı
Qəlbimə şö'lə saçır.
Ulduzlar hey sayrışır
Nurani kəhkəşanda.
Zülmət əriyir, qaçır,
Aydınlığa qarışır.
Can cismimlə barışır,
Məhəbbətdən alışır.
Allah, bu sevda nədir?
Xəyalım və gecələr
Tək qalıb, göz-gözədir,
Diz-dizə, üz-üzədir.
Sarmaşır, qucaqlaşır,
Bu, necə mö'cüzədir?
Bu gecə mö'cüzədir!

## Z a m a n

Zaman necə füsunkardı...
Qışda lopa qar yağardı...
İçimdə sönməz od vardı...

O zaman uzundu yollar,
Yol boyunca gəzərdi yar.
Ayaq gəzər, göz süzərdi,
Könül hər şeyi bəzərdi...

Elə ki axşam düşərdi,
İtlər hirslə hürüşərdi.
Sevgililər qaranlıqda
Bir anlığa görüşərdi.
Gözlər həsrətlə baxardı,
Damarlarda eşq axardı...

Nağılların dünyası da
Dadlı idi, atlı idi,
Atları qanadlı idi.
Söz-söhbət tə’sirli idi,
Həyat necə sirli idi...

Əridi, qarlar əridi,
Ətrafı duman bürüdü.
İtlər yamanca kiridi,
İtlər daha hirsli deyil,
Dolaşırlar veyil-veyil...

Bu günüm dünəni dandı,
İçim, ruhum alovlandı.
Atəş kül ilə barışdı,
Alova tüstü qarışdı.
Zaman mənə diş qıcadı
O, zalımdı, yırtıcıdı...

Zamanın hökmü ağırdı...
İçimi üşütmə sardı...
Saçlarım yaman ağardı...

## Bəxtimiz

Göydən xoş səda gələndə,
Fərəh göyə yüksələndə,
Bəxtimiz bizə güləndə
Dünya, əlbət, şahanədir.

Bəxtimiz bizdən küsəndə,
Cismimiz tir-tir əsəndə,
Əcəl qapını kəsəndə
Baş ağrısı bəhanədir.

## İşıq və qaranlıq

Sözdə mə’na arayanlar, sözə bəzək vuranlar,
Can mülkündə şur[1] bəsləyən, xəyal mülkü quranlar
Dedilər, iki dünya var: işıqlı və qaranlıq,
İşıqda aman gördülər, qaranlıqda yamanlıq.
Müxalif rəng rəngbərəngdir, əl saxlayın bir anlıq,
Qaranlıqda qəbahət yox, qarada nigaranlıq.

Hamı deyir: ay nə qəşəng, ulduzlar nə gözəldir,
Bu sevdaya qələm çəkən qaranlıq gecələrdir.
Qara qaşlara heyrandır qövsi-qüzeh[2], aypara;
Qara tellərin kəməndi dünya bəxş edir yara.
Qara gözlər par-par yanır, nurlandıqca qaralır,
Qara xallar ağ bənizdən könüllərə od salır.

Dünya dönüb, dolandıqca qaranlıqdır, işıqdır,
Qara ağın, ağ qaranın hüsnünə yaraşıqdır.

1. *Şur (farscadan) burada: eşq, sevgi; həyəcan, ehtiras. Can mülkündə şur və ya daxili şur: coşğunluq və ya qızğın, dərin duyğulara malik olmaqdır.*
2. *Göy qurşağı (ərəbcədən)*

## Uşaqlıqda qalan buludlar

Bir uşaqdım, vurulmuşdum
Asta yağan yağışlara.
Həsrətli bir sevgim vardı
Dağ başına düşən qara.
Bir uşaqdım, vurulmuşdum
Göydə gəzən buludlara.

Buludlar nə buludlardı...
Tutulardı, açılardı.
Gülən günləri də vardı,
Göz yaşı da axıdardı...
Mən yerlərdə, o, pərvazdı,
Duyulmamış bir avazdı,
Mö'cüzəydi, əlçatmazdı...

Köç eylədim ildən ilə,
Qanad açdım eldən elə.
Dünyada bir axın oldu,
Uzaq yerlər yaxın oldu.
Yolum düşdü buludlara,
İçindən çox keçib getdim,
Üstündə çox xəyal etdim.
Sevinmədim bu güzara,
Könül düşdü intizara...

Aman allah, gördüklərim
Buluddumu, dumandımı?
Tarladırsa, nə dümağdı?
Ya göylərə qarmı yağdı?
Bir tüstümü, bir nəfəsmi,
Uşaqlıqdan gələn səsmi?
Bəlkə, keçmiş buludların
Alışıb, cismi yanıbdır,
Küsmüş ruhu oyanıbdır?...
Bu gerçəkmi, gümandımı?
Mən sadiqəm o günlərə,
Əhdi pozan zamandımı?

Uşaqlıqda qalan bulud
Kövrək uşaqlığım kimi
Dilləndirdi sarı simi,
Varlığıma kölgə saldı.
O buludlar, o uşaqlıq
Daha geri dönməz oldu,
O iz ürəyimdə qaldı,
O məhəbbət sönməz oldu.

## **Yaşamağa nə var ki!...**

Sözümüzün keşiyində dura bilsək,
Hədəfləri bircə-bircə vura bilsək,
Gələcəyi günümüzdə qura bilsək,
Yaşamağa nə var ki?!...

Dörd tərəfdə ağ yalanlar görünməsə,
Xain, quldur saxta cildə bürünməsə,
Yaltaq adam ayaq altda sürünməsə,
Yaşamağa nə var ki?!...

Vətən, millət şüar deyil, amal olsa,
Ortalıqda hünər olsa, kamal olsa,
Söz sahibi, hünər əhli xoşhal olsa,
Yaşamağa nə var ki?!...

Bəd əməllər ayaq açıb yürüməsə,
Tale bizi fəlakətə sürüməsə,
Həssas ürək qəmə batıb çürüməsə,
Yaşamağa nə var ki?!...

Sevgililər can eşidib, can desələr,
Duyğuların şiddətindən titrəsələr,
Könüllərə körpü salsa şən busələr,
Yaşamağa nə var ki?!...

Nazlı canan canımıza qəsd etsə də,
Ağlımızı başdan alıb, məst etsə də,
Eşq var olsun, dünya tamam tərs getsə də,
Yaşamağa nə var ki?!...

Nazlı canan canımıza qəsd etsə də,
Ağlımızı başdan alıb, məst etsə də,
Eşq var olsun, dünya tamam tərs getsə də,
Yaşamağa nə var ki!...

## Şər və xeyir

Düşündüm, kiməm, nəçiyəm,
Nə fitrətin[1] təsdiqiyəm?
Dünyanın heç vecinəmi
Sərkərdə, ya pinəçiyəm?
Ya yol gedən köçəriyəm,
Çalınmamış musiqiyəm,
Ya oxunmamış şeirəm?
Qəribanə görünsə də,
İçimdə yaşar bir səda-
Şərlə çarpışan xeyirəm;
Baltanı vurum deyirəm
Çürümüş fikrin kökündən.
Yandıra bilsəydim əgər,
Simurq quşunun tükündən,
Söyləyərdim, qoru bizi
Sözlərin mənfi yükündən.

1. Yaradılış, zat, təbiət (ərəbcədən)

## Baş açmadım bu dünyadan

Aləm sirdir qalaq-qalaq,
Oxuyuruq varaq-varaq,
Təbiətdə ahəngə bax,
Od alsam da bu ziyadan,
Baş açmadım bu dünyadan.

Ağac içindən oyulur,
İlan qabıqdan soyulur,
Sevən gözündən duyulur,
Doymadım dadlı rö'yadan,
Baş açmadım bu dünyadan.

Haqqa sığınan döyülür,
Haqqı tapdayan öyülür,
Düz söz söyləyən söyülür,
Başa keçir yalan, nadan,
Baş açmadım bu dünyadan.

Gəl, ey həyat, həmdəmimsən,
Həm qəmimsən, həm dəmimsən,
Çox düşündüm, nəsən, kimsən?
Əl çəkmədim bu xülyadan,
Baş açmadım bu dünyadan.

## Ömür yolu

Ömür yolu müəmmalı,
Əsrarəngiz bir cahandır.
Ömür yolu yol deyil ki...
Ömür yolu bircə andır...

Ömür yolu məzələnir,
Güləyəndir, ağlayandır.
Uzandıqca təzələnir,
Ömür yolu çağlayandır.
Gah yüksəlir, gah da enir,
Gah açıqdır, gah dumandır.
Həm məkandır, həm zamandır...
Ömür yolu yol deyil ki...
Ömür yolu bircə andır...

## Qədim sual

Bu dünyaya nə gətirdim?
Bu dünyada nə qoymuşam?
Nə bir işi tam bitirdim,
Nə həyatdan tam doymuşam...
Hey çalışdım, hey itirdim,
Nə yoruldum, nə uf dedim...
Nə qazandım, nə götürdüm?
Nisgil qədim, sual qədim.

Səpdiklərim cücərsə də,
Tufanlara sinə gərmiş.
Haqq-ədalət ölməsə də,
Sarsılarmış, incələrmiş...
Doğru yolun hökmü ağır,
Addımbaşı döngələrmiş...
Qəm yağışı və çal-çağır
Bir-birinə tən gələrmiş...

## Keçmiş

Gələcək arzumdur, keçmiş xəyalım,
Biri əlçatmazdır, biri ünyetməz.
Birindən pay umar eşqim, amalım,
Birinin həsrəti, nisgili bitməz.

Zaman yaddaşımı süpürüb-silir,
Nə qədər siləcək bir allah bilir.
Dumanlar bürüyür ötən günləri,
Məndən uzaq düşmüş o küskünləri.

Əyri budaqlardan enir yarpaqlar,
Açır qucağını qara torpaqlar.
Bağımı bürüyür gur xəzanələr,
Könlümü sızladır son təranələr.

Fikir karvanını saxlamaq olmaz,
Ağıl güc gəlsə də, ürək aldatmaz.
Qarşıda nə varsa, yaradan qurur,
Könlümsə keçmişlə oturub-durur.

## Dumanlı dünya

Haqqa, ədalətə həsrət qalmışam,
Xəyal dünyasında məskən salmışam.
Arxa çevirmişəm nifrətə, kinə,
Açıq səmalarda qanad çalmışam,
Xəyal dünyasında məskən salmışam.

İrəli üfüqdə bulud sürünür,
Arxa tərəflərdə duman görünür.
Ayağım yerlərdə, əlim göylərdə,
Ulduzlar qaramtıl tülə bürünür,
Arxa tərəflərdə duman görünür...

Nazlı canan daha nazım çəkməyir,
Tanrı yolum boyu çiçək əkməyir;
Yollar həmən yoldur, mənzilsə yaxın,
Qamçı göydə qalıb, atım səkməyir,
Tanrı yolum boyu çiçək əkməyir.

## E’tiraf

Vəfalı həmdəmim, qınama məni,
Məhəbbətsiz yazmaq könlümə yatmır.
İcbari şe’rlə sınama məni,
Səfərbər etsəm də yüz min kəlməni,
Həcv demək ruhani qəlbimə çatmır.

Düşündürmək üçün, sevdirmək üçün
Ürəkdən ağlatmaq, güldürmək üçün
Hər şair xilqəti sehr yaratmır...
Şe’r meydanında mən nəkarəyəm?...
İlhamı qanadsız bir biçarəyəm,
Şeşpərim oynamır, kamanım atmır...
Şe’rimin ruhundan qopan dalğalar
Yatmış sahilləri öpüb oyatmır...

Ancaq sevgilərim çiçək açanda,
Ay buluddan qaçıb şö'lə saçanda
Qəlbimdə yazılır sirli namələr,
İçimdə səslənir həzin nəğmələr;
Şe'rlə qururam hər bir cümləni,
Şe'rlə anıram külli-aləmi.
Alovlu baxışlar, gizli alqışlar,
E'cazkar naxışlar, dadlı yağışlar
Şairin duyğusu, xoş arzusudur,
E'tirafım budur, xas işim budur;
Vəfalı həmdəmim, xahişim budur:
Gözümü nəğməylə bağlayın bir gün...
Məni öz şe'rimlə ağlayın bir gün...

## Dənizdə bir quş...

İstanbul, Boğaziçi...
Tüğyan edir dalğalar.
Dayan bir an , gəmiçi,
Dənizdə bir quş ağlar.

Qırılmışdır qanadı,
Qalıb suyun üzündə.
İşlər yaman fənadı,
Qəm oxunur gözündə.

Güvəndiyi göy sular,
O quşa qənim oldu.
Üzüntülü duyğular,
Ağrılar mənim oldu.

## **Qızdırma içində**

Üşütdüm, titrətdim, deyən, “hazıram”,
Ağrı üstələyir, yolu azıram,
Qızdırma  içində şe’r yazıram,
Bitəcəkmi bu silsilə, bilmirəm?

Göylərin yerlərə töhməti varmış,
Hər iki dünyanın vəhdəti varmış,
Əzrailin  mənlə söhbəti varmış,
Yetəcəkmi bir hasilə, bilmirəm?

## Tez gəlin

Sirr deyil keçənim, ötənim,
Titrəməz qorxudan bədənim,
Qəlbimsə titrəyər hər səsdən,
Xoş xəbər umaram hər kəsdən.
Nəğmələr dərdimə həyandır,
Çağlayır görüşə həvəsdən-
Könlümü üzməyin, amandır,
Tez gəlin, hay salın, ay mənim
Dünyanı fəth edən ləşkərim:
Aygünüm, Zeynəbim, Aytənim,
Evimin bəzəyi Ülkərim.

Saçımda parlayan ağ dənim
Yox olan günlərimdir mənim.
Ayrılıq dərdinə düçaram,
Sizləri rö'yamda qucaram.
Qanadlı yel kimi əsərəm,
Ellərdən ellərə uçaram.
Tez gəlin, qurbanlar kəsərəm,
Sevinər, əl çalar vətənim,
Ey ruhum, ey canım-cigərim:
Aygünüm, Zeynəbim, Aytənim,
Evimin bəzəyi Ülkərim.

## “Xəzər”imin sorağında

İlham pərim nur çilədi
Göy ümmanın qırağında.
“Xəzər”imi həkk elədi
Ömrümün şah varağında.

Pak əmələ vurulmuşam,
Könül, demə yorulmuşam,
Damla-damla durulmuşam
“Xəzər”imin sorağında.

Təbiət eşqə düçarmış,
Xəyallar qanad açarmış,
Ulduzlar şö’lə saçarmış
“Xəzər”imin çırağında.

Ayrılığa dözsəm əyər,
Məftun könlüm qəribsəyər,
Xumar-xumar gülümsəyər,
Nəğmə deyər fərağında.

- *Xəzər Universitəsinə həsr edilmiş bu şe’rə bəstəkar Ramiz Mustafayev musiqi bəstələmişdir.*

## Xəzər Universitəm

Xəzərimin sahilində, əzəmətli Bakımda
Dünyamıza şəfəq saçar Xəzər Universitəm.
Şe'r, sənət, insaniyyət dərslərindən pay verər,
Kainatın sirrin açar Xəzər Universitəm.

Həyat dolu qucağıdır,
Könlümün saf bucağıdır,
Xoş niyyətlər ocağıdır
Xəzər Universitəm.

Gəncliyimin qaynar çağı,
Dəryaları, uca dağı,
Gül-çiçəkli sevgi bağı-
Xəzər Universitəm.

- *Xəzər Universitəsinin himni kimi yazılmış bu şe'rin musiqisi Ramiz Mustafayev və Vasif Adıgözəlovundur.*

Adı elə bəlli oldu, ölkə-ölkə arandı,
Qucağında pıçıldandı neçə-neçə yar andı.
Mə'na doldu həyatıma, zirvələrə can atdım,
İlhamımın gur bulağı "Xəzər"imdən yarandı.

Həyat dolu qucağıdır,
Könlümün saf bucağıdır,
Xoş niyyətlər ocağıdır
Xəzər Universitəm.

Gəncliyimin qaynar çağı,
Dəryaları, uca dağı,
Gül-çiçəkli sevgi bağı-
Xəzər Universitəm.

## Hacı oldun, çox mübarək!

Bìsmìllah, ey əhlì-qələm, əhlì-ürfan[1], xoş gəlmìsən,
Xeylì gəzìb, xeylì görüb, qəlbən xeylì ìncəlmìsən.
Hacı oldun, mübarəkdìr, amìn, amìn, çox mübarək,
Amma sərrafì-süxənə[2] ìmtahandan çıxmaq gərək...

Getdìn beytülmüəzzəmə[3], kìtabüllah[4] sağ əlìndə,
Fəqət vəhdətì-vücuddur[5] sözündə, həm əməlìndə...
Bìr ìnsansan gövhərnìsar[6], bəlkə oldun mütəkəllìm[7],
Elmì-ləduniyyətdə[8] sən natəvansan[9], ya müəllìm?

*1. Zìyalı, dìnì ehkamları öyrənən (ərəbcədən).*
*2. Süxən: söz, nìtq (farscadan); sərraf: başa düşən, usta mənasında (ərəbcədən). Sərrafì-süxən: söz ustası, hazırcavab.*
*3. "Əzəmətlì ev", yə'nì Kəbə (ə.)*
*4. "Allah kìtabı", yə'nì Qur'an (ə.)*
*5. Təbìətì ìlahìləşdìrmə. Varlığın, vücudun bìrlìyìnə, təklìyìnə ìnanmaq. Panteìzm (ərəbcədən).*
*6. Burada:cavahìr saçan,söz cövhərì səpən, şaìr, natìq (f.və ə.)*
*Ì7. İlahìyyat bìlìcìsì; natìq (ə.)*

Ərəfədən[10] bìr gün keçmiş nìyyətìnə sən yetdìnmì?
Səfa ìlə Mərvə boyu çalışdınmı, sə'y etdìnmì?[11]
Beytülətìq[12] ətrafında sìdqìlə[13] təvvaf[14] oldunmu?
Öpüb həcərüləsvədì[15], sìyəhtar[16] nurla doldunmu?

*10. Ərəfə: Qurban bayramına bìr gün qalmış; bìr ìşìn görülməsìnə qalan az vaxt (ə.)*
*11. Hacıların Məkkə yaxınlığında zìyarət məqsədì ìlə Səfa ìlə Mərvə arasındakı yolda sürətlə yerìmələrì. Buna sə'y (ə.) deyìlìr.*
*12. "Qədìm ev"", yə'nì Kəbə*
*13. Səmìmì, ürəkdən, doğrudan (ə.)*
*14. Təvah: bìr şeyìn ətrafına dolanma. Təvvah (burada): Həcc mərasìmìndə Kəbənìn ətrafında dolanan (ə.)*
*15. Həcər: daş. Əsvəd: qara. Qara daş; Kə'bədəkì qara daş nəzərdə tutulur (ə.)*
*16. Tar: tel, sap. Qaratel, qaratellì (f.)*

Nə zamanlar, neçə dəfə baş vurursan müsəllaya?[17]
Təravìh[18] nə, ehya[19] nədìr, təsadüfdür hansı aya?
Təkbìrlərì[20] yerìndə de, mürcì-dìlì[21] qafìl tutma,
Məğşuş[22] zaman sıxsa belə, mehrabını[23] heç unutma.

*17. Namaz qılmaq, dua oxumaq üçün ayrılmış yer (ə.)*
*18. Ramazan gecələrìndə axşam namazı ardınca qılınan ìyìrmì rükətlìk namaz (ə.)*
*19. Bərpa etmə, canlandırma. Burada: ramazan vaxtı gecə oyaq qalıb ìbadətlə məşğul olmaq (ə.)*
*20. Namaz qılarkən deyìlən "allahü əkbər"" (ə.)*
*21. Mürc: quş. Dìl: ürək, qəlb. Könül quşu; ürək (f.)*
*22. Qarışıq, saxta (ə.)*
*23. Məscìddə qìblə cəhətdə dìvarda düzəldìlmìş və pìşnamazın (camaatın önündə namaz qılan dìn xadìmì) namaz*

Bərat günü[24] Xeyrülbəşər[25] nə düşündü, nə söylədì,
Vəlìyullah[26] ìntìzarda, Xeyrünnìsa[27] nə eylədì?
Mağaranı saray etdì sədaqətì yarì-qarın[28];
Kovneynə[29] səltənət oldu böyük əzmì çaharyarın[30].

*24. Həzrətì Məhəmmədə peyğəmbərlìk xəbərì verìldìyì gün (qəmərì ìlìnìn səkkìzìncì ayı – şəbanın 15-ì) (ə.)*
*25. Ìnsanların ən yaxşısı, yənì Həzrətì Məhəmməd (ə.)*
*26. Allahın vəlìsì, yə'nì Əlì, Vəlì: yaxın dost, hamì (ə.)*
*27. Qadınların ən yaxşısı, yə'nì Peyğəmbərìn qızı Fatìmə. Əlì və Fatìmənìn toyunun bərat günü olduğuna ìşarədìr.*
*28. Yar: dost, yoldaş, köməkçì, sevgìlì (f.). Qar: macara (ə.) "Mağara yoldaşı"""". Həzrətì Məhəmməd Məkkədən Mədìnəyə qaçarkən onunla bərabər mağarada gìzlənən Əbubəkrə ìşarədìr.*
*29. Ìkì dünya. Dünya və axìrət. Maddì və mənəvì aləm (ə.)*
*30. Dörd yoldaş (f.). Dörd rəşìd xəlìfə: Əbubəkr, Ömər, Osman, Əlì nəzərdə tutulur.*

Zülfìqarın[31] ìkì ağzı gözlərìnə göründümü?
De, əsayì-kəlìmullah[32] dönüb yerdə süründümü?
Leylətüləsra[33],göz görməz,me'racındadır[34] peyğəmbər,
Şəkkak[35] bəşər övladına nümayìşdìr şəqqülqəmər[36].

*31.“Ìkì fəqərəlì” (ə.). Ìkì ağızlı qılınc. Əlìnìn ləqəbì.*
*32. Kəlìmullah: “Allah ìlə danışan”, yə'nì Musa peyğəmbər (ə.). Musanın əsası (dəyənəyì, əl ağacı) deyìlənə görə ìlana çevrìlə bìlìrdì.*
*33. Leyl: gecə (ə.). Əsra gecəsì – Həzrətì Məhəmmədìn merac etdìyì gecə*
*34. Həzrətì Məhəmmədìn göyə çıxıb səyahət etməsì. Çıxılacaq yer; nərdìvan (ə.)*
*35. Şübhələnən*
*36. Şəqq: parçalama, sındırma. Qəmər: ay (ə.). Ayın parçalanması; möcüzə. Məhəmməd peyğəmbərìn göstərdìyì möcüzə- ayın iki parçaya ayrılıb yerə enməsì*

Hacı oldun, çox mübarək, kömək olsun ruzìrəsan[37];
Xəyalında canlandımı füsunkar Rövzeyì-rìzvan?[38]
Ruzədarsan[39], ya ruzəxar[40], könlündə ləlì-müzabmı?[41]
Mìzanında[42] nə ağırdır, pülì-sìrat[43] bìr əzabmı?
Şükrüllah[44], yola çıxmısan, kənarda axtarma hadì[45],
İsaxanlı Hamlet sənə duaçıdır mütəmadì[46].

*37. Ruzì verən, yənì Allah (f.)*
*38. Rövzə: bağça, axar sulu və çəmənlì bacça. Məcazì mənada: cənnət. Rìzvan: Cənnətìn gözətçìsì və qapıçısı olan mələk. Burada: cənnət, behìşt bağı (ə.)*
*39. Oruc tutan (Ruzə: oruc, orucluq) (f.)*
*40. Orucunu yeyən, oruc tutmayan. Burada xar: yeyən, ìçən mənasındadır (f.).*
*41. "Ərìdìlmìş ləl", burada: (poezìyada) qırmızı şəraba ìşarədìr. Yənì ləl (qìymətlì daş, yaqut) rənglì, al-qırmızı (ə.)*
*42. Ölçü, meyar, tərəzì. Qìyamətdə hər adamın günah və savabını ölçən tərəzì*
*43. Pül: körpü (f.). Sìrat: yol (ə.). Sìrat körpüsü. Qìyamətdə hamının keçəcəyì qıl körpüdür. Cəhənnəm üzərìndə qurulub, yıxılan – günahı çox olan adam odda yanır.*
*44. "Allaha şükür olsun"". Şükr: razılıq, mìnnətdarlıq (ə.)*
*45. Doğru yol göstərən. Düz yola çağıran. Bələdçì (ə.)*
*46. Daìmì. Davam edən (ə.)*

## Oldu

Aylar, illər uçub getdi, mənə qalan yaş oldu,
Mənzil gödək, qayğı yedək, işim tamam yaş oldu.

Çərxi-fələk yorulmadı, hümay[1] huşyar[2] olmadı,
Qartal zirvədə tək qaldı, qarğa düzdə baş oldu.

Yollar eniş, yollar yoxuş, yollar duman içində,
Nəqşə[3] cızan kişilərdən millətim çaş-baş oldu.

Söz, qafiyə, mə’na, ahəng ipə-sapa yatmadı,
Məxrəc böyük, qiymət kiçik, ölçülərim çaş oldu.

Düşünürdüm, necə açım öz eşqimi canana,
Mən bir sirdaş izindəykən sirrim kəm-kəm[4] faş[5] oldu.

Eşq bağında qonaq oldum, iştaham da maşallah,
Yarın mənə yedirtdiyi bir turşulu aş oldu.

Dedim, yandı canım odda, su çilə adda-budda,
İnsaf əli quruyubmuş, qəlbi qara daş oldu.

Gözəllər çox gözəlləşdi, əsir düşdüm sərasər[6],
Əlim bağlı, dilim bağlı, əlac tək göz-qaş oldu.

Digər oxunuşda:
İsaxanlı, əsir düşdüm gözəllərə sərasər[6],
Əlim bağlı, dilim bağlı, əlac tək göz-qaş oldu.

1. *Cənnət quşu, dövlət quşu (ə.) Mə'cazi mə'nada: səadət, uğur, xoşbəxtlik*
2. *Ayıq, diqqətli (f.)*
3. *Rəsm, plan, xəritə (f.). Nəqşə cızan- Burada: plan çəkən, yol göstərən*
4. *Az-az, bala-bala (f.)*
5. *Açıq, aşkar, ifşa olunmuş (f.)*
6. *Tamamilə, bütöv (f.)*

## Bağlıdır

Gecələrin mə’sum hüsnü nurlu aya bağlıdır,
Payızın sevda çələngi dilbər yaya bağlıdır.

Çayın incə təranəsi bulağın ahənginə,
Dənizin ağır ləngəri coşğun çaya bağlıdır.

Hicranın yorğun düşməsi, vüsalın şən nəğməsi
Kim bilir ki, neçə ilə, neçə aya bağlıdır?!

Aşiqin dönər əhvalı oynaq səmt küləyi tək,
Sevinci də, kədəri də küyə, haya bağlıdır.

Hilalqaş lütf eyləyərsə, iki göz tüğyan eylər,
Oxun tüğyan eyləməsi əyri yaya bağlıdır.

Sevgi ruhu qanadlanıb dolansa da aləmi,
Həyat dostu qismətinə düşən paya bağlıdır.

Digər oxunuşda:
İsaxanlı, sevgì ruhu dolansa da aləmì,
Həyat dostu qismətinə düşən paya bağlıdır.

## Vüsal həsrətindəyəm

Zahirim quru cəsəddir, hər nə var batindəyəm,
Piyadəlik əhvalım yox, hey xəyal atindəyəm.

Ruhum oynar, könlüm qaynar, cismim alışıb-yanar,
Doyumsuz eşqə düşmüşəm, olmazın çətindəyəm.

Ağlıma vuruldu qıfıl, gözüm qamaşdı qafil,
Mehrabımı unutmuşam, bilməm hansı dindəyəm.

Tale mənə gülümsəsə, qəşş edərəm sevincdən,
Xoşbəxtlərin qatarında sanaram ən öndəyəm.

Dünyanı fəth eyləyərəm, bəxtim müttəfiq olsa,
Məğrib mənim, Məşriq mənim, Hindistanda, Çindəyəm.

Şux geyimdə süzə-süzə çıxdı üzə o afət,
Qaş-qabağı yıxdı məni, ay allah, nə gündəyəm?!

Kəmər düşəydi belindən, “gəl”çıxaydı dilindən,
Xəyalımı tərk et, yavrum, vüsal həsrətindəyəm.

Digər oxunuşda:
Kəmər düşəydi belindən, “gəl” çıxaydı dilindən,
İsaxanlı, deyər: yavrum, vüsal həsrətindəyəm.

## Fələyin işi

Bu günümdən bezib qaçsam, yox olsam ilim-ilim,
Dünyanın o başında da mənimlədir nisgilim.

Yara yetmək müşkül imiş, bu, fələyin işidir,
Xəyalım yetəcək sənə, oxşa onu, sev, gülüm.

Xəyal ilə gerçək həyat tutuşaydı əl-ələ,
Yerlə göy öpüşən yerdə görüşəydik, sevgilim.

Göydən ulduz qoparaydım, solmaz ilahi çiçək,
Sən yerdən çiçək dərəydin, solar, solmaz, nə bilim?

Duydum fələyin işini, gah bağlayar, gah açar,
Açılsın bağlı qapılar, eşqdən tutulsun dilim.

Digər oxunuşda:
Duydum fələyìn ìşìnì, gah bağlayar, gah açar,
İsaxanlı, bəxtim gülsün, eşqdən tutulsun dìlìm.

## Təzadlar

Həyatın al günəşi var, zülməti, küləyi var,
Hər kəsin öz ürəyincə arzusu, diləyi var.

Saraylarda həm əl çalmaq, həm susmaq gərəyi var,
Aqillərin məclisində hərənin öz rə'yi var.

Qəmi həmdəm edənlərin bayatı deməyi var,
Xoşbəxtlərin coşğusu var, oynayıb-gülməyi var.

Pislikdə ad çıxaranın zəhəri var, zəyi var,
Ədalətə uyanların sevgidən bəzəyi var.

Zoru qayda sayanların əldə dəyənəyi var,
Zora qarşı duranların atəşdən köynəyi var.

Zalımların qəlbi daşdır, çətin əriməyi var,
Mərhəmətli insanların ipək tək ürəyi var.

Dünyadan köç edənlərin kəfəndən bələyi var,
Həyata göz açanların eşqi, gələcəyi var.

İnsan ulu, insan cocuq, təzadlı gerçəyi var,
Bir əlində iti bıçaq, birində çiçəyi var.

Digər oxunuşda:
İsaxanlı, insan böylə - təzadlı gerçəyì var,
Bìr əlìndə ìtì bıçaq, bìrìndə çìçəyì var.

# Rübailər

Başqa fəzalarda gördüm yerimi,
Ağlatdım, sızlatdım şe'r pərimi.
Ağlın gözü ölçüb-biçməsin deyə,
İçimdə gizlətdim şe'rlərimi.

Qayda yaradanam, qayda pozanam,
Sufiyəm, Dərvişəm, Dəli Ozanam.
Şairlik sevdası yoxdur başımda,
Məhəbbət coşanda şe'r yazanam.

Doğrumu axıtdım alın tərimi?
Tapdımmı həyatda əsl yerimi?
Cavab axtarmıram bu suallara,
Sadəcə, düşündüm öz qədərimi...

Nədəndir gen dünya mənə dar gəlir,
Sevinc üz döndərir, intizar gəlir?
Kişiyə ağlamaq yaraşmasa da,
Bə’zən ağlamamaq mənə ar gəlir.

Başlanğıc olubsa, söylə o, nədir?
Öncə kainatdır, ya düşüncədir ?
Məhdud ağlımızla əbədiyyəti
Dərk edə bilmirik, iş çox incədir.

Dünənim bitmişdir, sabahım-duman,
Gedənim itmişdir, gələnim-güman,
Ortada durmağa nə yer, nə vaxt var,
Dayanmayır zaman, dəyişir məkan.

Yoxdur bərabərlik qoca dünyada,
Kimi at oynadır, kimi piyada.
Sevgi üstələsə kini, nifrəti,
Əzilməzdi bəşər həddən ziyada.

Kövrəkdir hər günüm, heyhat, hər anım.
Çıxacaq əlimdən bir gün sükanım.
Cismani varlığım yetəcək sona,
Könüllər mülkünə qalır gümanım.

Karvan köçür, yola salmaq vaxtıdır,
Küsmüşəm, könlümü almaq vaxtıdır.
Laylası  əksikdir nazik ömrümün,
Çal, aşıq, çal, qardaş, çalmaq vaxtıdır.

Tale hər vaxt nəvazişə qərq etməz,
Günəşlər də nəhayətsiz bərq etməz.
Ölüm haqdır, dadacaqdır hər insan,
Dəli olsun, dahi olsun, fərq etməz.

Dərinə nüfuz et, düşünmə üzdən,
Vaz keçmə gecədən, bezmə gündüzdən.
Ədalət nur saçar ömür yoluna,
Doğru seçə bilsən əyrini, düzdən.

Günahkar bəndənin başqa bəndədən,
Kişinin qadından, qızın dədədən
Üzr diləməsi çətin deyilsə,
Cilddən cildə girmək baş alır nədən?

Deyirsən yayğındır tə'rif söyləmək,
Güclüyə yalvarmaq, tə'zim eyləmək.
Hər işin sahibi, sənətkarı var,
Məddahlıq sənətmiş, daha neyləmək?

Başqan çaldı-çapdı iş arasında,
Dilim kilidləndi diş arasında.
Cumdum təbiətə, eşqə, sənətə,
Dəmləndim yaz ilə qış arasında.

Dünəni yaşadım, dünəndə bitdi,
Uşaqlıq qayğılar  dinəndə bitdi.
Qısqanclıq, çılğınlıq dolu səhnələr
Ömrümüz  payıza  dönəndə bitdi.

Gözəllik seyrinə dalmaq üçündür,
Məhəbbət ürəkdə  qalmaq üçündür.
Həyat hərəkətdir, gəlib- gedəndir,
Əməl həyatdan bac almaq üçündür.

Ocaq külə dönsə, yandırıb-yaxmaz,
İlham gahdan sönsə, söz sözə baxmaz,
Günahlar dillənsə, sıxılar könül,
Dodaqlar tərpənər, göz gözə baxmaz.

Hər vaxta alışdım, hər üzü gördüm,
Gecəylə öpüşən gündüzü gördüm.
Ürək sadiq qaldı  sevgilərinə
Ürəkdə yaşayan hər izi gördüm.

Ürəyə düşən iz itmir ki, itmir,
Eşqin  tərənnümü  bitmir ki, bitmir,
Bəstəkar, ya şair, alim, ya rəssam,
Ömür həsr etsə də, yetmir ki, yetmir.

Nədir ölçü, nədir çəki dünyada?
Sevgi hökm edəydi təki dünyada.
Öləcəm qəlbimdə son məhəbbətim,
Gör necə xoşbəxtəm iki dünyada.

Atəşlər püskürən odlu günəşdin,
Ayla bəhsə girdin, göylə əlləşdin.
Bu nə incə görkəm, nə açıq geyim?
Nə xəbər eylədin, nə bir gənəşdin.

Qüdrətdən pay versin Füzuli, Xəyyam,
Vəsfinə gücüm yox, özgədir əyyam.
Gözlərim söyləyir sənə sevgimi,
Neyləyim, dilimi bağlayıb həyam.

# Tərcümələr

## V.A.Jukovskiy (1783-1852)

### Nəğmə

Gündoğana, gündoğana
Can atır yer kürəsi.
Gündoğana, gündoğana
Uçur könül nəğməsi.
Çox uzaqda, gündoğanda,
Göy meşədən o yanda,
Göy dağların arxasında
Bir gözəl ömür sürür.

Ayrılıq baş verdi, yəqin;
Düşünürəm, o gözəl
Mö'cüzəli keçmişlərin
Qəşəng əfsanəsidir.
O, sanki, əski günlərdən
Qonaq gəlmişdi mənə.
Bir nəş'əli yuxu idi,
Bəxtim gülmüşdü mənə.

## F.İ.Tütçev (1803-1873)

### Son məhəbbət

Yaşımız ötsə də, sevgimiz mətin,
Ən zərif duyğudur, ən dərin inanc!
Ey qürub çağının, son məhəbbətin
Vida işıqları, parla, şəfəq saç!

Kölgədən don geydi göylərin tağı,
Şəfəqlər bəzədi tək günbatanı,
Tələsmə, tələsmə, axşamqabağı,
Rəhm et, bizimlə qal, gözəllik anı.

Donsun asta-asta damarlarda qan,
Təki tərk etməsin qəlbi zəriflik...
Sən ey son məhəbbət, sən ey son məkan,
Sən həm səadətsən, həm çarəsizlik.

**F.İ.Tütçev**

**Son an**

Nə qədər ağırdır son an...
Ağıl-aciz, fikir - duman.
Ölüm - əzab, ölüm - vəhşət,
Qəlb yanğısı daha dəhşət;
Gör puç olur, ölür nələr...
Ən sevimli xatirələr...

## A.Fet (1820-1892)

**Sənə gətirdim salamlar,**
Ərz edim ki, günəş qalxdı.
Oynadı qaynar şüalar,
Yarpaqların güldü baxtı.

Ərz edim ki, yaz meşəsi
Tam oyandı hər budaqda,
Quşcuğazın silkinməsi
Və yaz dolu yanğılarda.

Ərz edim ki, tam istəklə
Dünənki tək gəldim yenə.
Ömrümü sidqi[1]-ürəklə
İstərəm, həsr edim sənə.

Ərz edim ki, hər tərəfdən
Öpür məni xürrəm[2] yellər.
Oxuyacam, bilməm nədən?
Budur, yetişir nəğmələr.

*1. sidq: səmimi, təmiz, saf (ə.) sidqi-ürəklə, ürək təmizliyi ilə, səmimi ürəklə*
*2. şad, şadyana, şən (f.)*

## N.S.Qumilev (1886-1921)

### Mən və Siz

Özgə bir diyardan gəlmişəm bura,
Deyiləm Sizinlə eyni biçimdə.
Xoşuma gəlməyir soyuq gitara,
Vəhşi zurna səsi inlər içimdə.

Məni cəlb etməyir geniş salonlar,
Şe’r oxuyuram əjdahalara.
Boş şeydir tünd pencək, ədalı donlar,
Varam buludlara, şır-şır sulara.

Şəkildə gözünü  ulduza dikən
Cəngavər zatına yoxdur marağım.
Su üçün əyilib belini bükən
Ərəb tək səhradan gəlsin sorağım.

Can verən deyiləm yorğan-döşəkdə,
Öləcəm həkimsiz və qeydiyyatsız,
Sarmaşıq bürümüş vəhşi xəndəkdə,
Xeyli uzaqlarda, ünvansız, adsız.

Axı səliqəli, açıq və aydın
Protestant cənnət nəyimə lazım?
Harda qaçaq-quldur, ya suçlu qadın
Dur,-deyə hay salır - odur murazım.

**Anna A.Axmatova (1889- 1966)**

**Mən səninlə şərab içməyəcəyəm,**
Çünki sən, ay uşaq, yaman dəcəlsən.
Ay işıq saçanda, bilirəm, o dəm
Qarşına çıxanla öpüşəcəksən.

Bizimkisə - dinc həyat,
İlahidən yaxşı gün.
Bizimkisə - şux gözlər,
İnsafı - qeyri-mümkün.

## Anna Axmatova

**Təbii zəriflik gəlməz ölçüyə,**
Səssizdir, heç nəylə qarışıq düşməz.
Əbəsdir diqqətin, düşübsən küyə,
Çiynimə, sinəmə dolayırsan xəz.

Və əbəsdir ilk sevgiyə
Həsr edirsən müt'i sözlər.
Az qalır ki, məni  yeyə
Bu inadcıl, doymaz gözlər.

## S.Yesenin (1895-1925)

**Cavandım, qəşəngdim ötən əyyamlar,**
O mavi axşamlar, aylı axşamlar.

Əsdi külək kimi, geri dönmədən,
Hər şey uzaq oldu, yan keçdi məndən.

Ürəkdə şaxta, qar, gözdə kölgələr,
Ah, mavi səadət, aylı gecələr.